**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-YUNANISTAN MÜNASİBƏTLƏRİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **İlyas Vaqif oğlu Hüseynov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Hikmət Baba oğlu Məmmədov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ramid Söhbət oğlu Hüseynov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəşad Əsəd oğlu Sadıqov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ________ Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ________ siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ________ siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

# I İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** SSRİ-nin dağılmasından sonra son otuz illik dövr ərzində tarixi taleyini müəyyənləşdirən Azərbaycan Respublikası Avropanın və dünyanın inteqrasiya sisteminə daxil olmuş və xarici ölkələrlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmuşdur. Azərbaycanın dünyada müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan bir dövlət kimi tanınması ölkəmizin nüfuzunun yüksəlməsini, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsini təmin etmişdir. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlığın dərinləşməsinə maraq göstərən ölkərin sayı yüksələn xətt üzrə inkişaf etmişdir. Azərbaycanda həyata keçirilən qlobal əhəmiyyətli enerji layihələri, eləcə də ölkəmizin beynəlxalq logistika və nəqliyyat qovşaqlarının mərkəzinə çevrilməsi bu prosesi bir qədər də sürətləndirmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi potensialının güclənməsi, hərtərəfli inkişafı, həyata keçirilən müstəqil xarici siyasət sayəsində ölkəmiz ətrafında əlverişli xarici mühit formalaşmış, dünyanın ən aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlər inkişaf etmişdir. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra beynəlxalq münasibətlər sistemində yeni mərhələyə qədəm qoymuşdur.

Yeni geosiyasi reallıqlar baxımından Azərbaycanın qlobal arenada yerinin daha da dayanıqlı olmasında enerji amili xüsusi vurğulanmalıdır. Azərbaycanın mühüm regional və qlobal əhəmiyyətli aktora çevrilməsində ölkənin yürütdüyü müstəqil enerji siyasətinin rolu önəmlidir. Bu baxımdan, Balkan yarımadasında, Avropanın cənub-şərqində yerləşən, Avropa İttifaqı (Aİ) və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvü olan Yunanıstan Respublikasının Azərbaycan Respublikası ilə müasir dövrdə formalaşmış münasibətlərinin araşdırılması mühüm aktuallıq kəsb edir.

Yunanıstan qədim tarixə malik olan ölkədir və bu baxımdan dünyada özünəməxsus yer tutur. 2011-ci ildə Yunanıstanın Prezidenti Karolos Papulyasın Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev qeyd etmişdir ki, Yunanıstan-Azərbaycan əlaqələri sürətlə və çox

uğurla inkişaf edir. *"Bizim ölkələr arasında çox yüksək səviyyədə qarşılıqlı etimad, qarşılıqlı maraqlar var. Əminəm ki, ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi nəticəsində ölkələrimizin vətəndaşları da bir-birini daha yaxşı tanıyacaqlar. İnsanlar arasında təmaslar daha sıx olacaqdır. Beləliklə, gələcəkdə Azərbaycan-Yunanıstan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir*"[1].

İkitərəfli iqtisadi münasibətlərdə artan dinamizmin siyasi münasibətlərə də təsiri nəticəsində əlverişli əməkdaşlıq mühiti formalaşmışdır. Buna görə də Azərbaycan və Yunanıstan arasında olan əlaqələrin bütün aspektlərinin araşdırılmasına ehtiyac yaranmışdır.

Azərbaycan və Yunanıstan arasında birbaşa sərhəd olmasa da, Yunanıstanla münasibətlərin inkişaf etdirilməsi həm də ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirən amil kimi çıxış edir.

Azərbaycanın Yunanıstanla münasibətlərində aktuallıq kəsb edən və qarşılıqlı maraq doğuran amillərə aşağıdakıları aid etmək olar:

Azərbaycan-Yunanıstan əlaqələri çoxşaxəli səciyyə daşıyır. Ötən illər ərzində ikitərəfli münasibətlərdə bir çox sahələrdə, o cümlədən, siyasi, iqtisadi, enerji, elmi, mədəni və digər sahələrdə ciddi tərəqqi qeydə alınmışdır. Yunanıstanla Azərbaycan arasında münasibətlərin inkişafı Azərbaycan-Aİ əlaqələrinə də müsbət təsir göstərir. Buna görə də ikitərəfli münasibətlərin genişləndirilməsi Azərbaycanı Aİ ilə institusional formada yaxınlaşdırır.

Azərbaycan və Yunanıstan arasında parlamentlər səviyyəsində işgüzar münasibətlər qurulmuş və çoxsaylı görüşlər həyata keçirilmişdir. Buna görə də ikitərəfli parlamentlərarası münasibətlərinin araşdırılması mühüm aktuallıq kəsb edir.

Yunanıstanın daim Ermənistanı müxtəlif səviyyələrdə dəstəkləməsi və ermənipərəst mövqeyi, o cümlədən 2020-ci ilin payızında 44 gün ərzində Azərbaycanın işğal altında olan torpaqlarının işğaldan azad edilməsində və 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Yunanıstanın sərgilədiyi qərəzli yanaşmaları müşahidə olunmuşdur. Yunanıstanın dövlət və hökumət başçıları Azərbaycanda keçirilən rəsmi səviyyəli görüşlərdə beynəlxalq hüququn fundamental norma və prinsiplərinə hörmətlə yanaşdıqlarını

---

[1] Əliyev, İ.H. İnkişaf məqsədimizdir [100+ cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – 2017. – c. 45. – s. 51

bildirsələr də, Yunanıstanın ermənipərəst münasibəti ikitərəfli münasibətləri dərindən sarsıtmışdır.

İkitərəfli münasibətlərlə əlaqələrlə yanaşı, beynəlxalq təşkilatlar və institutlar kontekstində Azərbaycan-Yunanıstan əlaqələrinin araşdırılması önəmli xarakter daşıyır. Çoxtərəfli müstəvidə münasibətlərinin perspektivlərinin sistemli öyrənilməsi olduqca əhəmiyyətlidir.

Mövzunun ölkəmiz üçün aktuallığı bundan ibarətdir ki, Balkan regionunda yerləşən Yunanıstanda Azərbaycana dair mövqenin yunan mənbələri əsasında araşdırılması böyük əhəmiyyətə malikdir.

Yunanıstanda fəaliyyət göstərən "beyin mərkəzlərinin" siyasi və geosiyasi qərarların qəbul olunmasında mühüm rolu olduğu üçün bu ölkədə Azərbaycana münasibətin öyrənilməsi müasir beynəlxalq münasibətlər sisteminin trendləri ilə uyğunluq təşkil edir.

1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin tarixində mühüm hadisəyə çevrildi. Avropanın enerji təhlükəsizliyinin artırılmasına əlavə dəyər qatan "Şahdəniz-2" çərçivəsində hasil olunan qazın Aİ-nin qaz idxalçılarına çatdırılması istiqamətində CQD-nin sonuncu seqmenti olan Trans Adriatik Boru Xətti (TAP) layihəsinin 2020-ci ilin sonlarında istifadə verilməsi, Azərbaycan-Yunanıstan enerji əməkdaşlığı baxımından aktuallığı ilə seçilir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və bu aspektdə münasibətlər strateji xarakter daşıyır.

"DESFA"-nın (Yunanıstan milli qaz nəqli sisteminin eksklüziv operatoru olan dövlət şirkəti) səhmlərinin əldə olunması ilə bağlı razılaşmanın pozulması, iki ölkə arasında iqtisadi əlaqələrin təşviqi səbəbindən yaranan pozitiv işgüzar mühiti xeyli dərəcədə pisləşdirmişdir. Yunanıstanın SİRİZA (Radikal Solçular Koalisiyası) hökuməti və Avropa Komissiyasının Rəqabət üzrə Direktorluğunun ədalətsiz, qeyri-konstruktiv mövqeyi və konyuktur maraqları SOCAR-ın DESFA-nın səhmlərinə yiyələnməsinə əngəl olmuşdur. Azərbaycan və Yunanıstan arasında enerji sahəsində əməkdaşlığa mənfi təsir edən əsas amillərin dəyərləndirilməsi və SOCAR-DESFA sövdələşməsinin pozulmasını doğuran səbəblərin təhlil edilməsi mühüm aktuallıq kəsb edir.

Yunanıstanda turizm ÜDM-ə töhfə verən əsas sahə olmaqla yanaşı, məşğulluğun təmin olunması və yeni iş yerləri üçün də əhəmiyyətli bir

sektor olaraq müəyyən olunmuşdur. Yunanıstanın turizm sahəsində əldə etdiyi nailiyyətlərin nəzəri və praktiki əsaslarının mənimsənilməsi ikitərəfli siyasi gündəliyin prioritet istiqamətlərini təşkil edir.

Azərbaycan və Yunanıstan arasında mədəniyyət, təhsil və elm sahəsində münasibətlərin genişləndirilməsi, inkişaf etdirilməsi üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir. Humanitar sahənin öyrənilməsi və ortaq dəyərlərin təhlil olunması ikitərəfli münasibətlərin dərinləşdirilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycan ilə Yunanıstan arasında diaspora sahəsində əlaqələrin sistemli araşdırılması, ikitərəfli münasibətlərə müsbət təsir göstərməklə yanaşı, ölkəmizin həqiqətlərinin Yunanıstanda təbliğatı baxımından da önəmlidir.

Azərbaycanda müstəqillik illərində mövzu ilə bağlı məqalələr və bəzi tədqiqatlar dərc edilsə də, Yunanıstan ilə əlaqələrin yaxın keçmişini əhatə edən və bu əlaqələrin siyasi, iqtisadi və humanitar sahələrini əhatəli araşdıran elmi işlərə təsadüf edilmədiyi üçün mövzunun köklü surətdə işlənilməsinə ehtiyac yaranmışdır.

Azərbaycanın enerji diplomatiyası və Azərbaycan qazının Yunanıstan vasitəsilə Qərbə nəqlinin perspektivləri haqqında Prezident İlham Əliyevin "Azərbaycanın Xəzər nefti" əsərindən istifadə olunmuşdur[2].

"Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" mövzusunda məqalələr toplusunda N.Əliyev tərəfindən Azərbaycan-Yunanıstan münasibətləri araşdırılmışdır[3].

"Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə" adlı məqalələr toplusunda Yunanıstanın Azərbaycanda səfiri D.Tsounqas iki ölkə arasında olan münasibətlərin bütün aspektlərinə nəzər salmışdır[4].

Z.Adıgözəlovun "Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006)" adlı monoqrafiyasında Azərbaycanın Aİ ölkələri ilə diplomatiya tarixinin 1991-2006-cı

---

[2] Алиев, И.Г. Каспийская нефть Азербайджана / И.Г.Алиев. – Москва: Известия, – 2003. – 316 с.

[3] Əliyev, N. Azərbaycan-Yunanıstan münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) (məqalələr toplusu) – Bakı: Poliart, – 2017. – s. 517-520

[4] Tsoungas, D.G. 25 Years of Independent Azerbaijan Through the Eyes of Ambassadors. (Collection of articles) / Baku: BEST-TMS, – 2016. – p. 417-422

illərinin öyrənilməsi kontekstində Yunanıstanla münasibətlərə də ayrıca toxunulmuşdur[5].

M. İsmayılov "Azərbaycan-Yunanıstan siyasi münasibətləri" mövzusunda məqaləsində ikitərəfli münasibətlərin inkişaf dinamikasını təhlil etmişdir[6].

R.Cəfərli, E.Hacıalıyev, İ.Mirzəbəyli, M.Yaqubzadə və E.Cəfərlinin analitik məqalələrində Azərbaycan və Yunanıstan prezidentlərinin qarşılıqlı səfərləri şərh edilmiş və ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərinə nəzər salınmışdır[7].

F.Hüseynəliyev, E.Fətullayev və F.Bağırovanın analitik məqalələrində Azərbaycan və Yunanıstan arasında münasibətlərin siyasi-iqtisadi aspektləri təhlil olunmuşdur[8].

S.Parastatov yeni dövrdə Yunanıstanın Qafqaza yönəlik xarici siyasətini araşdırmış, Yunanıstan ilə Ermənistan arasında olan yaxın əlaqələrə və Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin ümumi vektorlarının müəyyənləşdirilməsində yaranan problemlərə toxunmuşdur[9].

---

[5] Adıgözəlov, Z.N. Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006) / Z.N. Adıgözəlov. – Bakı: CBS PP, – 2015. – s. 95-100

[6] İsmayılov, M. Azərbaycan-Yunanıstan siyasi münasibətləri // Geostrategiya. Sentyabr-Oktyabr, – 2019, № 5 (53). – s. 45-50.

[7] Cəfərli, R. Azərbaycan-Yunanıstan əlaqələrinin daha da dərinləşməsi üçün geniş imkanlar var // Azərbaycan. – 2009, 22 fevral. – s. 1; Hacıalıyev, E. Azərbaycan-Yunanıstan əlaqələri ildən-ilə inkişaf edir // Azərbaycan. – 2011, 17 aprel. – s. 2; Mirzəbəyli, İ. Azərbaycan-Yunanıstan əlaqələri qarşılıqlı etimad və maraqlar müstəvisində genişlənir // Xalq. – 2011, 13 aprel. – s. 5; Yaqubzadə, M. Azərbaycan-Yunanıstan əlaqələri yeni mərhələyə qədəm qoyur // Xalq. – 2011, 10 aprel. – s. 1, 3; Cəfərli, E. Azərbaycanla Yunanıstan arasında dərin təməllər üzərində qurulmuş siyasi-iqtisadi əlaqələr mövcuddur // Yeni Azərbaycan. – 2011,8 aprel. – s. 3.

[8] Hüseynəliyev, F. Borularla oyun. TAP-a qarşı etirazların arxasında ekologiya qayğısı deyil, iqtisadi və geosiyasi amillər durur: [Elektron resurs] / Regionplus.az – 15.07.2017. URL: http://regionplus.az/az/articles/view/6283; Фатуллаев, Э. Дело Каспара: спецслужбы, бриллианты и кровь: [Электронный ресурс] / Haqqin.az – 20 Февраля, 2018. URL: https://haqqin.az/news/123223; Багирова, Ф. ЦРУ: Греция поддерживала террористов ASALA, а Сирия – PKK: [Электронный ресурс] / 1news.az – 24 Января, 2017. URL: https://1news.az/news/20170124032949913-TSRU-Gretsiya-podderzhivala-terroristov-ASALA-a-Siriya-PKK

[9] Парастатов, С.В. Внешняя политика Греции на Кавказе после распада СССР // – Пятигорск: Вестник ПГЛУ. № 4, 2008. – с. 350-353.

Azərbaycanın Yunanıstanda səfiri R.Mustafayevin müsahibələri Azərbaycan-Yunanıstan münasibətlərini təhlil etməyə yardımçı olmuşdur[10].

İ.Vəlizadə, Z.Mehdiyev, E.Eminoğlu, T.Qasımova, A.Həsənov və R.Məmmədov Vətən müharibəsindən əvvəl və sonrakı dövrdə Azərbaycan-Yunanıstan münasibətlərini tədqiq etmişlər[11].

Yunanıstanın Avropa və Xarici Siyasət Fondunun (ELIAMEP) 2013-cü ildə "Yunanıstan və Azərbaycan üçün yeni dövr" mövzusunda həyata keçirdiyi elmi konfransda R.Mustafayevin "2013-cü ildə Azərbaycan-Yunanıstan münasibətləri: ikitərəfli əməkdaşlıq üçün yeni üfüqlər açılır" və ELIAMEP-in Yaxın Şərq və Qafqaz üzrə mütəxəssisi E.Venetisin "Mədəniyyət və siyasət bir-birinə bağlıdır: Afina və Bakının tərəfdaşlığı" adlı məruzələrində Azərbaycan və Yunanıstan

---

[10] Рустамов, Э. Посол Рахман Мустафаев: «Греция поддерживает суверенитет и территориальную целостность Азербайджана»: [Электронный ресурс] / 1news.az – 08 Сентября, 2011. URL: https://1news.az/news/posol-rahman-mustafaev-greciya-podderzhivaet-suverenitet-i-territorial-nuyu-celostnost-azerbaydzhana; Θεοχάρη, Γ. Πρέσβης Αζερμπαϊτζάν: "Σε νέα φάση οι διμερείς σχέσεις Ελλάδας-Αζερμπαϊτζάν": [Ηλεκτρονικός πόρος] / Briefingnews.gr. – Φεβρουάριος 03, 2014. URL: https://www.briefingnews.gr/parapolitika/presvis-azermpaitzan-se-nea-fasi-oi-dimereis-sheseis-elladas-azermpaitzan

[11] Велизаде, И. Треугольник по-армянски. Насколько долговечным окажется трехсторонний формат Армения - Греция – Кипр: [Электронный ресурс] / Region Plus. – 01 Октября, 2020. URL: http://regionplus.az/ru/articles/view/7204; Мехдиев, З. Профессор Пантеона: Карабах – часть Азербайджана: [Электронный ресурс] / Axar.az – 14 Мая, 2020. URL: https://ru.axar.az/news/politika/468767.html; Эминоглы, Э. И греческие боевики прибыли на войну с Азербайджаном: [Электронный ресурс] / Haqqin.az – 08 Октября, 2020. URL: https://haqqin.az/oldage/191131; Касимова, Т. В Карабахе обнаружены боеприпасы из Иракского Курдистана: [Электронный ресурс] / Minval.az – 19 Октября, 2020. URL: https://m.minval.az/news/124045954; Гасанов, А. Греческая неблагодарность: [Электронный ресурс] // Зеркало. – 12 Августа, 2021. URL: https://zerkalo.az/grecheskaya-neblagodarnost/; Μαμμάντοβ, Ρ.Η. επόμενη ημέρα της έντασης: [Ηλεκτρονικός πόρος] / Karfitsa.gr – Ιούλιος 25, 2020, σ. 20 URL: https://www.karfitsa.gr/wp-content/uploads/2020/07/831.pdf?fbclid=IwAR1K5LW-PlQXggyy5HLKPacfRcNxZf17SazL1svIZVYBYrFL0QfsIVmKSGI

arasında ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivlərinə diqqət yetirilir[12].

A.Vassiliou, C.İsmayılov və Q.Həsənova iki ölkə arasında tarixi, siyasi, iqtisadi və mədəni sahədə olan münasibətləri tədqiq etmişlər[13].

Yunanıstanın Cənub-Şərqi Avropada qonşuları ilə əlaqələri, Aİ və NATO-da mövqeyi, Balkan regionu və Cənubi Qafqaz, eləcə də Azərbaycan-Yunanıstan münasibətlərinin inkişaf perspektivlərinə dair mühüm fikirlər T.P.Dokos, L.Tsoukalis P.Tsakaloyannis və T.Couloumbisin kitablarında və məqalələrində rast gəlinir[14].

Yunan, ingilis və rus dilində apardığımız tədqiqatlar nəticəsində, bəzi hadisələrin ermənipərəst mövqedən təqdim edilməsi üzə çıxmışdır. 2016-cı ilin aprel döyüşlərindən sonra CNN-in Yunanıstan bürosunun müxbiri M.Karxilaki münaqişə zonasına səfər etmiş və milli maraqlarımızla ziddiyyət təşkil edən sənədli film lentə almışdır. Filmdə

---

[12] Mustafayev, R. Azerbaijani-Hellenic Relations in 2013: Opening New Horizons for Bilateral Cooperation / 10th issue of Middle East Mediterranean Report focuses on Greek – Azerbaijani relations / Athens: ELIAMEP, 4/2 September-December – 2013, – p. 5-11; Venetis, E. Culture and Politics Interwoven: The Partnership of Athens and Baku /Athens: ELIAMEP, 4/2 September-December. – 2013, – p.17-19

[13] Vassiliou, A. Greek-Azerbaijan relations revisited: [Electronic resource] / Athens: RIEAS, – June 15, 2014. URL: https://www.rieas.gr/researchareas/global-issues/asian-studies/2162-greek--azerbaijani-relations-revisited-; Ismayilov, J. Historic and Modern-Day Azerbaijani-Greek Cultural Relations, Challenges and Suggestions: [Electronic resource] / Athens: RIEAS, – August 31, 2015. 12 p. URL: http://www.rieas.gr/images/middleeast/eurasia/Azerbaijan18.pdf; Hasanova, G. Azerbaijani-Greek relations: New vision: [Electronic resource] / Athens: RIEAS, August 27, 2014. 7 p. URL: https://rieas.gr/researchareas/global-issues/eurasian-studies/2254-azerbaijani-greek-relations-new-vision

[14] Dokos, T. Who Lost Greece: The Geopolitical Consequences of the Greek Crisis // Athens: ELIAMEP Policy Papers, – 2012. (February) no. 18. – p. 5-6; Tsoukalis, L. The Future of Greece in the European Union / Greece in Twentieth century. Editors: Couloumbis, T. Kariotis, T. Bellou, F. London: Frank Cass. – 2003. – 336 p.; Tsakaloyannis, P. Greece: the limits of convergence / The Actors in Europe's Foreign Policy. Editor: Hill, C. – London: Routledge, – 2002, – 328 p.; Couloumbis, T. Greece and the European Challenge in the Balkans // European Security in the 1990s: Problems of South-East Europe. Proccedings of the Rhodes Conference (6-7 September 1991). Chapter 11. The UN Institute for Disarmament Research (UNIDIR). New York, 1992. p. 163-172

separatçı qurumun rəhbəri və qondarma vəzifəli şəxslərindən müsahibələr nümayiş olunmuşdur[15].

K.Pliakos separatçı rejimi beynəlxalq aləmdə tanıtmaq məqsədilə qanunsuz səfərlər təşkil edən yunan vətəndaşı Q.Karampetyana qarşı açılan cinayət işinin səbəblərini müəyyən etməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzuna və imicinə kölgə salan media resurslarının araşdırmalarına da istinad etmişdir[16].

Vətən müharibəsində yunan hakerlərin Türkiyə parlamentinin veb saytını sındıraraq Ermənistana həsr olunmuş məlumat yerləşdirməsi, 2020-2021-ci illər üçün BMT-nin Baş Assambleyasının 75-ci iclasının sədri vəzifəsinə namizədliyi irəli sürülən V.Bozkıra qarşı Ermənistan, Cənubi Kipr və Yunanıstanın qarşı çıxması və Yunanıstanın Azərbaycandakı səfiri N.Piperiqosun Şuşaya səfər edən 40-dan çox diplomat arasında yer almasını P.Antonopoulos Ermənistanın narrativləri əsasında şərh etmişdir[17].

Evronyusun müxbiri İ.Karaqiorqas 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində bölgəni könüllü tərk etsələr də, 100 min erməninin didərgin düşməsi haqqında dezinformasiya və saxta məlumat yaymaqla məşğul olmuşdur[18].

---

[15] Καρχιλάκη, Μ. Ναγκόρνο Καραμπάχ Στον μαύρο κήπο του Καυκάσου: [Ηλεκτρονικός πόρος] / CNN Greece. – Νοέμβριος 2, 2017. URL: https://www.cnn.gr/nagorno-karabakh

[16] Πλιάκος, Κ. Το Ναγκόρνο Καραμπάχ, τα λόμπι και ένα διεθνές ένταλμα σύλληψης με ελληνικό χρώμα: [Ηλεκτρονικός πόρος] / CNN Greece. – Μάρτιος 08, 2018. URL: https://www.cnn.gr/focus/story/120665/to-nagkorno-karampax-ta-lompi-kai-ena-diethnes-entalma-syllipsis-me-elliniko-xroma

[17] Antonopoulos, P. Anonymous Greece hacks into Turkish Parliament website and leaves message in support of Armenia: [Electronic resource] / Greekcitytimes.com – October 08, 2020. URL: https://greekcitytimes.com/2020/10/08/anonymous-greece-hacks-into-turkish-parliament/; Antonopoulos, P. Greece, Cyprus & Armenia make historical move by blocking Turkey from leading UN General Assembly: [Electronic resource] / Greekcitytimes.com – June 10, 2020. URL: https://greekcitytimes.com/2020/06/10/greece-cyprus-armenia-make-historical-move-by-blocking-turkey-from-leading-un-general-assembly/; Antonopoulos, P. Greek Ambassador visits Nagorno-Karabakh on Azerbaijani propaganda tour: [Electronic resource] / Greekcitytimes.com. – July 12, 2021. URL: https://greekcitytimes.com/2021/07/12/nagorno-karabakh-propaganda/

[18] Καράγιωργας, Ι. Ναγκόρνο-Καραμπάχ: Από Σεπτέμβριο το Αζερμπαϊτζάν θα εγκαταστήσει πληθυσμό στην περιοχή: [Ηλεκτρονικός πόρος] / Μάιος 29, 2024 URL:

Yunanıstan, Ermənistan və Cənubi Kipr arasında yaxınlaşmanı və ölkəmizə qarşı hərbi sahədə intensiv görüşlərin və təlimlərin səbəblərini öyrənmək üçün S.Arutyunyan, M.Mkrtçyan və A.Ovsepyanın məqalələrinə müraciət edilmişdir[19].

SİRİZA-nın hakimiyyəti dövründə Yunanıstanın qaz siyasətini və DESFA-nın özəlləşdirilməsində yaranan problemləri tədqiq edən İ.Qurbanov Azərbaycan və Yunanıstan arasında enerji sahəsində olan əlaqələrdə yaranan ziddiyyətləri araşdırmışdır[20].

A.Livanios "ABŞ-ın Cənub Qaz Dəhlizi üzrə strategiyası: Azərbaycan və Yunanıstanın strateji əməkdaşlığı" adlı məqaləsində enerji sahəsində icra olunan layihələrin regionun gələcəyi üçün önəmini araşdırmışdır. A.Livanios "Cənub Qaz Dəhlizi problemi: Avropa və Azərbaycan üçün risklər nədən ibarətdir?" mövzusunda məqaləsində Şahdəniz yatağından hasil olunan qazın Avropaya nəqli kontekstində Azərbaycan və Avropa üçün risklərini dəyərləndirmişdir[21].

T.Tsakiris və G.Rzayevanın "Strateji imperativ: Azərbaycanın qaz strategiyası və Aİ-nin Cənub dəhlizi" mövzusunda qələmə aldıqları

---

https://gr.euronews.com/2024/05/29/nagorno-karabakh-apo-septembrio-to-azermpaitzan-tha-egkatastisei-plithismo

[19] Арутюнян, С. В январе в Ереване состоится саммит премьер-министров Армении, Греции и Кипра: [Электронный ресурс] / Радио Азатутюн. – 05 Ноября, 2019. URL: https://rus.azatutyun.am/a/30254744.html; Мкртчян, М. Армения, Греция и Кипр подписали трехсторонний оборонный план действий на 2020_год: [Электронный ресурс] / Arminfo.info – 29 Февраля, 2020. URL: https://arminfo.info/full_news.php?id=49731&lang=2; Овсепян, А. Новый антитурецкий фронт и роль Армении: [Электронный ресурс] / Armenpress.am – 11 Июня, 2020. URL: https://armenpress.am/rus/news/1018069.html

[20] Gurbanov, I. Greece appeared a "Gordian Knot" for Azerbaijan's SOCAR: [Electronic resource] / Energy Corridors Review. – September 15, 2015. URL: https://energycorridors.wordpress.com/2015/09/15/greece-appeared-a-gordian-knot-for-azerbaijans-socar/

[21] Livanios, A. The Shale Gas Revolution and US Strategy on the Southern Gas Corridor: The Strategic Cooperation of Azerbaijan and Greece / Azerbaijan and the New Energy Geopolitics of Southeastern Europe. Editors: Assenova, M. & Shiriyev, Z. Washington: The Jamestown Foundation. – 2015. – p. 203-231.; Livanios, A. The Conundrum of the Southern Gas Corridor: What are the Risks for Europe and Azerbaijan? The viewpoint of an insider // Paris: Actuelles de l'Ifri, Institut Francais des Relations Internationales (IFRI), April 2013. p. 1-18.

monoqrafiyada TAP layihəsinin geosiyasi və geoiqtisadi perspektivləri təhlil olunmuşdur[22].

K.Andriosopoulos və G.Rzayevanın redaktəsi ilə dərc olunan “Cənub Qaz Dəhlizi və onun Cənub-Şərqi Avropa üçün əhəmiyyəti” adlı monoqrafiyada CQD-nin potensial imkanları araşdırılmışdır[23].

Ş.Hacıyevin enerji təhlükəsizliyi mövzusunda tədqiqatı 2020-ci ilin sonunda TAP boru kəmərinin istifadəyə verilməsinin qlobal əhəmiyyətinə həsr olunmuşdur[24].

Rusiyanın yunanşünasları L.Xodov, Y.Kvaşnin və A.Lubotskayanın məqalələri Yunanıstanda iqtisadi böhranın ictimai-siyasi həyata təsiri və yaranan çətinliklərinin səbəbləri ilə yaxından tanış olmaq imkanı yaratmışdır[25].

M.Qacar Bakı Slavyan Universitetində yunan dilinin tədrisinə, A.Əlifli isə Azərbaycan ilə Yunanıstan arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələlərinə diqqət çəkmişdir[26].

A.Məmmədova Yunanıstanda siyasi partiyaların fəaliyyətini, İ.Məmmədova yunan dilinin tarixinə dair bəzi məqamları araşdırmışdır[27].

---

[22] Tsakiris, T., & Rzayeva, G. Strategic Imperative: Azerbaijani Gas Strategy and the EU’s Southern Corridor / SAM Review – Baku: SAM Center for Strategic Studies, – 2012 – 44 p.

[23] Andriosopoulos, K. & Rzayeva, G. The Southern Gas Corridor and its Importance for South-East Europe. New Era of Energy Transition / Energy Management Center at ESCP Business School, – 2020. – 238 p.

[24] Hajiyev, Sh. The news you possibly missed: TAP pipeline up and running: [Electronic resource] / Euractiv.com – November 19, 2020. URL: https://www.euractiv.com/section/azerbaijan/opinion/the-news-you-possibly-missed-tap-pipeline-up-and-running/#ea-comments

[25] Ходов, Л. Греческая экономика: факторы развития // – Москва: Современная Европа – 2008, № 1 (33) – с. 87-96.; Квашнин, Ю. Кризис в Греции // – Москва: Мировая Экономика и Международные Отношения, – 2011. № 4, – с. 70-78.; Лубоцкая, А.С. Истоки и причины внутриполитического кризиса в Греции // – Москва: Проблемы национальной стратегии, – 2012. № 3 (12), – с. 7-21.

[26] Qacar, M. Bakı Slavyan Universitetinin tarixindən // Bakı: BSU-nun elmi əsərləri. İctimai-siyasi elmlər seriyası. – 2016, №1. – s. 4-13.; Алифли, А.Р Сотрудничество Азербайджана и Греции в области культуры // Баку: Elmi iş. – 2019, № 2 (3). – с. 78-80

[27] Məmmədova, A. Yunanıstanda siyasi partiyaların fəaliyyəti // Yunanıstan: Tarix, Siyasət, İqtisadiyyat, Mədəniyyət mövzusunda elmi-praktik konfrans – Bakı: Kitab

Mövzu ilə bağlı çox maraqlı tədqiqatlardan biri İ.Pilicevin rus dilində nəşr olunan “Azərbaycandakı yunanlar” adlı kitabıdır[28].

S.Zeynalova XIX-XX əsrin əvvəllərində Azərbaycanda formalaşan yunan icmasının etnosiyasi özəlliklərini tədqiq etmişdir[29].

S.Anqelisin yazdığı “Azərbaycanın yunanları” adlı kitabında Azərbaycanda yunanların məskunlaşması və sonrakı dövr araşdırılmışdır[30].

Mövzu ilə bağlı elmi ədəbiyyatın geniş təhlili və dəyərləndirilməsi göstərir ki, bu sahədə yaranmış boşluqların doldurulması və ümumiləşdirmələrin aparılması üçün əsaslı və kompleks tədqiqat işinə ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini müasir dövrdə Azərbaycan-Yunanıstan münasibətləri, predmetini isə Azərbaycanın Yunanıstan ilə ikitərəfli və çoxtərəfli qaydada qurulan siyasi, iqtisadi və humanitar əlaqələrinin formalaşmasının, inkişaf dinamikasının və perspektivlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi Azərbaycanın Yunanıstan ilə münasibətlərini araşdıraraq, Azərbaycanın bu ölkə ilə əməkdaşlığının xüsusiyyətlərini və istiqamətlərini tədqiq etməkdir. Bu hədəfə nail olmaq üçün tədqiqat işində aşağıdakı mühüm vəzifələr seçilmiş və yerinə yetirilmişdir:

- Azərbaycanın Yunanıstanla olan siyasi, iqtisadi və humanitar əlaqələrinin inkişafı prosesinin elmi əsaslarını və prinsiplərini müəyyən etmək;
- Müstəqilliyin əldə olunmasından sonra Azərbaycanın Yunanıstanla diplomatik-siyasi münasibətlərinin nəzəri və hüquqi aspektlərini araşdırmaq;

---

aləmi – 05 İyun, – 2004, – s. 103-107.; Məmmədova, İ. Yunan dilinin tarixinə dair bəzi məqamlar // Yunanıstan: Tarix, Siyasət, İqtisadiyyat, Mədəniyyət mövzusunda elmi-praktik konfrans – Bakı: Kitab aləmi, – 05 İyun, – 2004, – s. 112-115.

[28] Пилиджев, И.Х. Греки в Азербайджане / Греки в Азербайджане (сборник статей и воспоминаний) – Баку: Изд-во. Qanun, – 2015. – 3-14.

[29] Зейналова, С.М. Формирование Европейских общин на Кавказе (XIX – первая половина XX вв.) / С.М.Зейналова. Баку: Изд-во.«Мутарджим» – 2010. – 300 с.

[30] Αγγελίδης, Σ. Οι Έλληνες του Αζερμπαϊτζάν / Σ. Αγγρλίδης. – Θεσσαλονίκη. – 2006, – 64 σ.

➢ Azərbaycan Yunanıstan ilə ikitərəfli əlaqələrinin qurulması və inkişaf mərhələlərini və əsas xüsusiyyətlərini tədqiq etmək,

➢ Azərbaycan və Yunanıstan arasında parlamentlərarası diplomatiya müstəvisində qurulan əlaqələri və əməkdaşlığın mövcud vəziyyətini tədqiq etmək;

➢ Ermənistanın Azərbaycan torpaqlarını işğalı, eləcə də Vətən müharibəsi, lokal xarakterli antiterror əməliyyatı və post münaqişə dövründə Yunanıstanın mövqeyini tədqiq etmək;

➢ Azərbaycan və Yunanıstan arasında regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın istiqamətlərini araşdırmaq;

➢ Azərbaycan ilə Yunanıstanın iqtisadi əlaqələrini təhlil etmək, geoiqtisadi imkanları dəyərləndirmək və bu sahədə əməkdaşlığın inkişafında karbohidrogen ehtiyatların əhəmiyyətini açıb göstərmək;

➢ Avropanın enerji təhlükəsizliyi kontekstində Azərbaycan və Yunanıstan arasında əməkdaşlığı tədqiq etmək;

➢ Azərbaycan və Yunanıstan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivlərini araşdırmaq;

➢ Azərbaycan və Yunanıstan arasında turizm sahəsində əməkdaşlıq imkanlarını tədqiq etmək;

➢ Azərbaycanın Yunanıstan ilə humanitar-mədəni sahələrdə əməkdaşlıq istiqamətlərini və formalarını təhlil etmək;

➢ Azərbaycan-Yunanıstan münasibətlərində diaspora amilinin praktiki aspektlərini araşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji bazasını siyasi təhlil və proqnozlaşdırma prinsip və metodları təşkil etmişdir. Problemin tədqiqi üçün siyasi, elmi-nəzəri metodlardan (faktoloji analiz, ümumiləşdirmə, tarixi yanaşma, müqayisəli təhlil və s.) istifadə edilmişdir. Müəllif mövzuya dair faktları və materialları toplayaraq ümumiləşdirmələr aparmış, sistemləşdirmiş, ikitərəfli və çoxtərəfli münasibətləri yaxınlaşdırmağa hesablanmış zəruri tövsiyə və təkliflərini irəli sürmüşdür.

Tədqiqatın mənbəşünaslıq bazasında ayrı-ayrı mənbələrdən toplanan məlumatlar xüsusi əhəmiyyət kəsb edir. Belə ki, "Müstəqilliyimiz əbədidir" (Heydər Əliyev) və "İnkişaf - məqsədimizdir" (İlham Əliyev) çoxcildlikləri, Azərbaycan Respublikasının Prezidentinin Fərman və Sərəncamları, Azərbaycanın

Yunanıstan ilə əlaqələri və əməkdaşlıq strategiyasına dair Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi məlumatları, Azərbaycan Respublikası Milli Məclisinin qərarları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sənədləri, Azərbaycan, Yunanıstan və digər ölkələrdə nəşr edilən KİV-lərdən götürülən informasiyalar, Azərbaycan və Yunanıstanın dövrü mətbuatında dərc olunmuş rəsmi məlumat və sənədlər dissertasiyada mənbə kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı elmi müddəalar müzakirəyə çıxarılmışdır:

❖ Azərbaycan və Yunanıstan arasında diplomatik-siyasi əlaqələrin inkişafının təhlili, bu münasibətlərin uğurlu perspektivlərini göstərir.

❖ Azərbaycanın xarici siyasət fəaliyyətində Yunanıstanla siyasi, iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığın dərinləşməsi Aİ-nin regional inteqrasiya proqramları çərçivəsində münasibətlərin inkişafına müsbət təsir etmişdir.

❖ Azərbaycanla Yunanıstan arasında parlamentlərarası diplomatiya sahəsində əməkdaşlığın imkanlarından istifadə olunmuşdur.

❖ Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi prosesində Yunanıstanın ermənipərəst mövqeyi Azərbaycan-Yunanıstan münasibətlərinə mənfi təsir etmişdir.

❖ Azərbaycanın Yunanıstanla əməkdaşlığında ikitərəfli münasibətlərlə yanaşı, çoxtərəfli müstəvidə əlaqələrə də diqqət ayrılmışdır.

❖ Azərbaycanın Yunanıstanla enerji sahəsindəki əməkdaşlığı həm ikitərəfli münasibətlərin inkişafı, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

❖ Yunanıstanın turizm sahəsində zəngin təcrübəsinin öyrənilməsi və geniş tətbiqi ölkəmizə turist axınını sürətləndirə bilər.

❖ Azərbaycan və Yunanıstan arasında humanitar-mədəni sahədə münasibətlərin genişləndirilməsi, digər sahələrin inkişaf edirilməsində aktiv rol oynayır.

❖ İkitərəfli münasibətlərin inkişafında diaspora amilinin rolu çox böyükdür.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan və Yunanıstan arasındakı əlaqələrin formalaşması və inkişafı Azərbaycanda siyasi elmin daim diqqət mərkəzində olmaqla yanaşı, bir sıra araşdırmaları şərtləndirmişdir. Lakin Azərbaycan ilə Yunanıstan arasında siyasi, iqtisadi və humanitar sahədə münasibətlər ilk dəfə olaraq dissertasiya işi səviyyəsində tədqiq olunmuşdur.

Dissertasiya işinin əsas elmi yeniliyini aşağıdakı kimi qruplaşdıra bilərik:

✓ Azərbaycan-Yunanıstan münasibətləri və əməkdaşlığının inkişaf dinamikası yeni faktlar və mənbələr əsasında araşdırılmışdır;

✓ Azərbaycanın Yunanıstanla siyasi, iqtisadi, humanitar-mədəni əlaqələrinin mövcud vəziyyəti təhlil edilmiş və yaxın gələcəkdə Yunanıstanla əlaqələrin inkişaf perspektivləri dəyərləndirilmişdir;

✓ Beynəlxalq münasibətlər sistemində Azərbaycanın Yunanıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığının əhəmiyyəti təhlil edilmiş və əməkdaşlığın inkişaf etdirilməsinin ölkəmizin Aİ-nin layihələrində yerinin və rolunun daha da möhkəmlənəcəyi qənaətinə gəlinmişdir;

✓ Azərbaycan-Yunanıstan münasibətlərində enerji təhlükəsizliyi siyasi gündəliyin prioritet istiqamətini təşkil etmiş və bu mövzu uzun müddət öz aktuallığını qorumuşdur;

✓ Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin pozulması problemi ilə bağlı Yunanıstanın mövqeyi təhlil olunmuş, Yunanıstan-Cənubi Kipr-Ermənistan üçlüyünün Türkiyəyə qarşı qərəzli addımları və fəaliyyəti nəzərdən keçirilmiş, Vətən müharibəsi zamanı Yunanıstan tərəfindən işğalçı və təcavüzkar Ermənistana siyasi, iqtisadi, hərbi, kiber təhlükəsizlik, mənəvi, humanitar və diaspora səviyyəsində dəstəyin göstərilməsi, maliyyə yardımlarının ayrılması, Azərbaycan-Yunanıstan münasibətlərinə köklü surətdə mənfi təsir etməsi əsaslı araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından Azərbaycanın Yunanıstan ilə siyasi, iqtisadi və humanitar əlaqələrinə həsr edilən tədqiqat işlərinin, monoqrafiyaların, dərs vəsaitlərinin və məqalələrin yazılmasında, xarici siyasət və beynəlxalq münasibətlərlə məşğul olan dövlət strukturlarının praktiki fəaliyyətlərində istifadə oluna bilər. Tədqiqat prosesində toplanmış materiallardan ali məktəblərdə müvafiq problemlər üzrə mühazirə və

seminarların keçirilməsində, Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin təbliğində istifadəsi faydalı olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin ölkəmizdə və onun hüdudları xaricində dərc olunan elmi məqalələrdə, müxtəlif beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu.** Tədqiqat işinin strukturu mövzunun xarakterinə uyğun olaraq müəyyənləşdirilmişdir. Dissertasiya işinin titul səhifəsi (335 işarə), mündəricat (2.150 işarə), giriş (28.558 işarə), I Fəsil – (77.654 işarə), II Fəsil (75.625 işarə), III Fəsil (77.668 işarə), nəticə (13.952 işarə) təşkil edir. Dissertasiya işinin ümumi həcmi mətni kompüterdə yazılmış 190 səhifə, əlavələr, qrafik və ədəbiyyat siyahısı istisna edilməklə 275.942 işarədən ibarətdir.

## II TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi verilmiş, tədqiqatın obyekti və predmeti, nəzəri əsasları, araşdırma metodları, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu göstərilmişdir.

Dissertasiyanın **I fəsli "Azərbaycan-Yunanıstan siyasi münasibətləri"** adlanır və dörd yarımfəsildən ibarətdir. Fəslin **"Azərbaycan və Yunanıstan arasında diplomatik-siyasi münasibətlərin nəzəri, hüquqi əsasları, inkişaf mərhələləri və əsas xüsusiyyətləri"** adlanan **1-ci yarımfəslində** Azərbaycan ilə Yunanıstan arasında nəzəri, hüquqi, tarixi və siyasi münasibətlərin istiqamətləri və prinsipləri müəyyənləşdirilir, Yunanıstanın və Azərbaycanın geostrateji mövqeyinə nəzər salınır, Azərbaycanın dövlət müstəqilliyini bərpa edildikdən sonra ikitərəfli münasibətlərin inkişaf dinamikası təhlil edilir. Balkan yarımadası və Cənubi Qafqazda yerləşən dövlətlərin

diplomatik və siyasi sahədə münasibətlərinin inkişaf perspektivləri araşdırılır.

Azərbaycan öz karbohidrogen ehtiyatlarını Gürcüstan və Türkiyə ərazisi ilə Avropa bazarına çıxarmaq haqqında qəti qərar qəbul etdikdən sonra Yunanıstanın tranzit potensialı genişlənmişdir. Bunu nəzərə alan yunan diplomatları Ümummilli lider Heydər Əliyevlə görüşlər təşkil etməyə və danışıqlar üçün Bakıya gəlməyə təşəbbüs göstərmişlər.

Yunanıstanın prezidentləri Konstantinos Stefanopulos və Karolos Papulyas ilə keçirilmiş görüşlərdə imzalanan dövlətlərarası sənədlər siyasi dialoqun daha da genişlənməsinə səbəb olmuş və ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldırmışdır. Prezident İlham Əliyevin 2004, 2009 və 2014-cü illərdə Yunanıstana uğurlu səfərləri regionda sülhün və təhlükəsizliyin qorunması baxımından əlamətdar olmuş və çox geniş auditoriyanın diqqətini cəlb etmişdir[31].

Birinci fəslin **"Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığı"** adlanan **2-ci yarımfəslində** vurğulanır ki, Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığı parlament diplomatiyası baxımından mühüm əhəmiyyət kəsb edir.

2010-cu ildə Yunanıstan parlamentinin deputatı A.Nerantzis, 2016-cı ildə isə Q.Kanelli Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərləri ikitərəfli münasibətlərə ciddi zərbə vurmuşdur[32].

Yunanıstanın parlament üzvlərinin bu səfərləri, qanunverici orqanlar arasında olan əməkdaşlığın ruhuna zidd olaraq birtəfərli addımlar kimi qiymətləndirilmiş, Ermənistanın təxribatçı əməllərinin təşviqinə və onsuz da ağır olan vəziyyətin daha da gərginləşməsinə xidmət etmişdir.

Vətən müharibəsinin gedişində 2004-2007-ci illərdə Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, daha sonra qrupun üzvü olan H.Maksimos Azərbaycanın Qarabağ və Şərqi

---

[31] Məmmədov, H. Hüseynov, İ. Azərbaycan və Yunanıstan arasında siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsində Prezident İlham Əliyevin rolu // – Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, DİA – 2020. № 2 (70) – s. 121.

[32] "Onların qanunsuz səfəri qərəzli və təhrikçidir" – XİN: [Elektron resurs] / Qafqazinfo.az – 12 Aprel, 2016. URL: https://qafqazinfo.az/news/detail/onlarin-qanunsuz-seferi-qerezli-ve-tehrikcidir-xin-143885

Zəngəzurda keçirdiyi hərbi əməliyyatlara etiraz əlaməti olaraq qrupun sıralarını tərk etmişdir[33].

Birinci fəslin **"Azərbaycanın ərazi bütövlüyünü bərpa edilməsi kontekstində Ermənistan-Yunanıstan münasibətləri"** adlanan **3-cü yarımfəslində** Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində prinsipial və ardıcıl təşəbbüsləri təhlil olunmuşdur.

Ermənistan Yunanıstan və Cənubi Kiprlə təmaslar qurması və qardaş Türkiyəyə qarşı ittifaqda yer alması sayəsində hərbi-siyasi maraqlar güdmüşdür. 2019-2020-ci illərdə üçtərəfli format çərçivəsində müxtəlif səviyyələrdə keçirilmiş görüşlərin intensivliyi göstərir ki, Ermənistan özünün işğalçılıq siyasətini möhkəmləndirmək və hərtərəfli müdafiə etmək məqsədilə Cənubi Kiprin və Yunanıstanın simasında yeni müttəfiqlik münasibətlərinə nail olmağa çalışmışdır. 2020-ci ildə Prezident İlham Əliyev Yunanıstanın səfiri N.Piperiqkosun etimadnaməsini qəbul edərkən Azərbaycanın qəti və prinsipial mövqeyini diqqətə çatdırmışdır[34].

Ermənistanın ölkəmizə təcavüzünün başlanğıcından bütün ədalət və humanizm prinsiplərini pozaraq işğalçının yanında dayanan ölkələr sırasında Yunanıstan da olmuşdur. 44 gün davam edən hərbi əməliyyatlar zamanı Yunanıstanda ermənilərə böyük bir dəstək dalğası yaradılmış, demək olar ki, hər gün mərkəzi küçələrdə nümayişlər keçirilmiş, KİV-lərdə qərəzli materiallar tirajlanmışdır. Bu nümayişlərdə yunanlar və ermənilər dünya ictimaiyyətini Azərbaycana siyasi və iqtisadi təzyiq göstərməyə çağırırdılar. Yunanıstanın tutduğu qərəzli mövqe Azərbaycanla münasibətlərə böyük zərbə vurmuşdur. Yaranmış vəziyyətlə bağlı Azərbaycanın Yunanıstanda səfiri məsləhətləşmələr üçün Bakıya çağırılmışdır[35].

---

[33] Αποχώρησε από την κοινοβουλευτική ομάδα φιλίας Ελλάδας - Αζερμπαϊτζάν ο Χαρακόπουλος: [Ηλεκτρονικός πόρος] / CNN Greece. – Οκτώβριος 05, 2020. URL: https://www.cnn.gr/politiki/story/237198/apoxorise-apo-tin-koinovoyleytiki-omada-filias-elladas-azermpaitzan-o-xarakopoylos

[34] Ильхам Алиев о треугольнике Армения - Греция – Кипр: [Электронный ресурс] / Haqqin.az – 02 Сентября, 2020. URL: https://haqqin.az/news/188149

[35] Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidmət idarəsinin məlumatı: [Elektron resurs] / XİN. – №: 324/20. URL: https://www.mfa.gov.az/az/news/6935/view

2021-ci ildə Yunanıstanın Azərbaycandakı səfiri N.Piperigosun Şuşa şəhərinə səfər etməsi Ermənistanda və Yunanıstanda müzakirələrə səbəb olmuşdur.

Birinci fəslin **“Azərbaycanın-Yunanıstan münasibətləri çoxtərəfli müstəvidə”** adlanan **4-cü yarımfəslində** regional və beynəlxalq təşkilatlar kontekstində Azərbaycan və Yunanıstan arasında əməkdaşlıq məsələləri tədqiq edilir.

Aİ ilə münasibətlərin inkişafında və genişlənməsində Yunanıstanın böyük rolu vardır. Aİ Azərbaycan üçün perspektivli regional layihələrin həyata keçirilməsi baxımından və investisiya mənbəyi kimi böyük əhəmiyyət daşıyır. Bu isə öz növbəsində Azərbaycana enerji resurslarından, Şərq və Qərblə inkişaf etmiş iqtisadi əməkdaşlıq əlaqələrindən istifadə edərək öz müstəqil siyasətini yürütməsinə imkan yaradır[36].

Azərbaycanla siyasi münasibətlərdə Aİ-yə üzv olan dövlətlərin əksəriyyəti məhz bu təşkilatın maraqlarının təmsilçisi kimi çıxış edirlər. Eyni sözləri Yunanıstan haqqında da demək olar. Xüsusilə vurğulamaq lazımdır ki, Yunanıstan hər üç Cənubi Qafqaz ölkəsində diplomatik nümayəndəlikləri var və eyni zamanda sözügedən missiyalar Aİ-nin də müxtəlif funksiyalarını həyata keçirirlər[37].

Azərbaycan və Yunanıstanın enerji müstəvisindəki tərəfdaşlığı faktiki olaraq qlobal və regional geosiyasi planda yaranmış problemlərin həllinə xidmət edir. Yunanıstan ilə əməkdaşlıq sahəsində suverenlik baxımından Azərbaycan iki önəmli dividend əldə edir. Əvvəla, Aİ ilə qarşılıqlı əlaqələri daha da yaxınlaşdırır, onunla strateji tərəfdaşlığı konkret çərçivədə inkişaf etdirir. İkincisi, ölkənin sabitliyini və təhlükəsizliyini qorumaq üçün beynəlxalq

[36] Nuriyev, E. Cənubi Qafqazın müasir geosiyasətində Azərbaycanın strateji rolu // – Bakı: Qərb Universiteti. Elmi xəbərlər, 2011. №1, – s. 15-31

[37] Voskopoulos. G. “Greek Foreign Policy in the Post-Cold War Era: Balancing Between EU Institutionalization and Regional Challenges” / Balkans, Foreign Affairs, Politics and Socio-Cultures. Editors. C. Yenigün, F. Gjana – 2011, Tirana: Epoka University Publications. – p. 435 – 456.

təminat qazanır. Məlumdur ki, hər iki aspekt hazırda bütün postsovet məkanında təmsil olunan dövlətlər üçün aktuallığını qoruyur[38].

Ötən dövr ərzində Azərbaycan və Yunanıstan arasında siyasi münasibətlər çoxtərəfli qaydada intensiv inkişaf etmişdir. İki dövlət arasında Aİ, QDİƏT, BMT, Avropa Şurası, ATƏT və NATO çərçivəsində əməkdaşlıq genişlənmişdir.

Dissertasiyanın **II fəsli "Azərbaycan-Yunanıstan iqtisadi münasibətləri"** adlanır. Fəslin **"Azərbaycan və Yunanıstan arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq: geoiqtisadi aspektlərin təhlili"** adlanan **1-ci yarımfəslində** vurğulanır ki, enerji təhlükəsizliyi problemi müasir dövrün ən çox müzakirə olunan və daim diqqət mərkəzində saxlanılan məsələlərindəndir.

Enerji təhlükəsizliyi hazırda təkcə iqtisadi deyil, həm də siyasi məna kəsb edir[39]. Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik konsepsiyasının ən mühüm elementlərindən biridir. Enerji təhlükəsizliyi milli müdafiədən sonra dövlət təhlükəsizlik siyasətinin əhəmiyyətinə görə ikinci komponentidir[40].

"Şahdəniz" yatağının kəşf edilməsindən sonra Azərbaycan qazının Avropa bazarına çıxarılması başlıca vəzifə hesab edilirdi. TAP üzərində seçimin edilməsindən sonra Azərbaycan-Yunanıstan münasibətləri ikitərəfli müstəvidə, Aİ kontekstində, eləcə də Balkanlarla Cənubi Qafqaz arasında regional əməkdaşlıq, təhlükəsizlik və uzunmüddətli sabitliyin təmin olunması baxımından önəmli rola malikdir. TAP Azərbaycan qazını nəql edəcək ilk irimiqyaslı beynəlxalq boru kəməri olmaqla yanaşı, Yunanıstanın geosiyasi rolunu, eləcə də iqtisadi inkişafını gücləndirir. Enerji sahəsində əməkdaşlıq həm Azərbaycan, həm Yunanıstan, həm də bütövlükdə Aİ-nın enerji təhlükəsizliyi üçün çox mühüm amil hesab olunur.

Dissertasiyada DESFA-nın özəlləşdirilməsi ilə bağlı əmələ gələn problemlərin səbəb və nəticələri də geniş təhlil edilmişdir.

---

[38] Азербайджан-Греция: два аспекта стратегического партнерства: [Электронный ресурс] / Sia.az – 08 Июля, 2014. URL: https://sia.az/ru/news/analysis/419114.html

[39] Məmmədov, H.B. Xarici siyasət / H.Məmmədov. Bakı: Elm, – 2019. – 324 s.

[40] Kalicki, H.J. and Goldwyn, L.D. (eds.) / Energy and Security: Toward a New Foreign Policy Strategy. Washington – Baltimore: Woodrow Wilson Center Press with Johns Hopkins University Press, – 2005. – 640 p.

Fəslin **“Azərbaycan və Yunanıstan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri”** adlanan **2-ci yarımfəslində** Yunanıstan iqtisadiyyatında dərin iz buraxmış böhran fonunda işgüzar dairələrin bir-birini tanıması, ticari-iqtisadi münasibətlərin yaradılması və bu istiqamətdə keçirilmiş biznes forumların əhəmiyyətinə toxunulur. 2019-2023-cü illərdə Azərbaycan və Yunanıstan arasında ticarət əlaqələrinin dinamikası təhlil olunur və ötən müddətdə ölkələrin sahib olduqları potensialla ticarətin həcminin qənaətbəxş olmadığı vurğulanır.

Azərbaycan-Yunanıstan iqtisadi tərəfdaşlığı hər iki ölkə üçün böyük fürsət kimi qiymətləndirilir. Azərbaycan və Yunanıstanın ümumi sərhədi olmasa da, iqtisadi və geosiyasi reallıqlar iki ölkə arasında əməkdaşlığı şərtləndirən əsas amillər hesab olunur[41].

Turizm, inşaat, kənd təsərrüfatı məhsullarının istehsalı, qida sənayesi, informasiya texnologiyaları, alternativ enerji mənbələrindən istifadə və s. sahələr üzrə əməkdaşlığın formalaşması ticari-iqtisadi münasibətlərin genişlənməsinə xidmət edir.

Yunanıstandan Azərbaycana ixrac olunan əsas məhsullar dərman vasitələri, kağız məhsulları, borular, müxtəlif xəzlər və alüminium profillərdir. Ölkəmizin iş adamlarının da Yunanıstanda öz biznesinin genişləndirməsi önəmlidir. Yunanıstanda enerji, ətraf mühitin qorunması, telekommunikasiya, konsaltinq və bir çox digər sahələrdə uğur qazanmaq olar. Yunanıstanın əczaçılıq, inşaat materialları və qida sənayesi sahəsində əldə etdiyi təcrübənin ölkəmizdə tətbiqi arzuolunandır.

Fəslin **“Azərbaycan və Yunanıstan arasında turizm sahəsində əməkdaşlıq”** adlanan **3-cü yarımfəslində** 2005-ci ilin aprelin 7-də Azərbaycan Hökuməti və Yunanıstan Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişə uyğun olaraq ikitərəfli münasibətlərdə turizm sahəsində görülmüş işlərə nəzər salınır. Azərbaycanın turizm sektoru üzrə yaxından əməkdaşlıq etdiyi ölkələrdən biri də Yunanıstandır.

---

[41] Гусейнов, И. Этапы развития и основные особенности дипломатических и политических отношений между Азербайджаном и Грецией // – Москва: Этносоциум, – 2020. № 5, 143, – с. 66-79.

Yunanıstanda turizmin inkişafı 1960-1970-ci illərdə başlayıb və ölkə dünyada aparıcı mövqelərə çıxıb. Sonrakı dövrdə hotel və digər turizm infrastrukturu obyektlərinin inşası genişləndikcə, ölkəyə gələn turistlərin sayı da artmağa başlamışdır. 2004-cü ildə Afinada keçirilən Yay Oimpiya Oyunları bu artım tempinə xüsusilə təkan verdi. Bu, iqtisadiyyata müsbət təsir göstərməklə yanaşı, müəyyən bir gərginliyə də səbəb olmuşdur. 2004-cü ildə büdcə kəsiri ÜDM-in 6,1%-ni təşkil etdi ki, bu da avrozona iştirakçısı olan ölkələr üçün icazə verilən göstəricidən 2 dəfədən çox idi[42]. Yunanıstanda turizm sektoru böhran dövründə iqtisadiyyatının daha dayanıqlı və rəqabətqabiliyyətli sahəsi olmuşdur[43].

Dissertasiya III fəsli **"Azərbaycan-Yunanıstan humanitar münasibətləri"** adlanır. Fəslin **"İkitərəfli münasibətlərdə "yumşaq güc" amili: Azərbaycan və Yunanıstan arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq"** adlanan **1-ci yarımfəslində** mədəni diplomatiya və "yumşaq güc" məsələləri araşdırılır.

Bu gün beynəlxalq münasibətlər sistemində xarici siyasətə təsir edən alternativ (qeyri-hərbi və qeyri-iqtisadi) mənbələr getdikcə daha çox əhəmiyyət almağa başlayır. Bu sahəyə aid müasir tədqiqatlarda ikili ziddiyyət geniş vüsət alıb, yəni yumşaq və sərt güc anlayışları ("hard power" və "soft power") geniş istifadə olunur. Yumşaq güc konsepsiyasının müəllifi olan C.Nay, yumşaq gücü məcburiyyət və ya pul mükafatı deyil, cazibə yolu ilə beynəlxalq məsələlərdə arzu olunan nəticələrə çatmağın yolu hesab edir[44].

1997-ci ildə Azərbaycan hökuməti və Yunanıstan hökuməti arasında təhsil, mədəniyyət və elm sahələrində əməkdaşlıq haqqında saziş imzalanmışdır. 2003-cü ildə 2002-2005-ci illər üçün Azərbaycan hökuməti və Yunanıstan hökuməti arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram qəbul edilmişdir. 2011-ci ildə Azərbaycan hökuməti və Yunanıstan hökuməti arasında 2011-2013-cü

---

42 Ходов, Л.Г. Греческая экономика после Олимпийских игр // Москва: Российский Внешнеэкономический Вестник – 2006, № 8 – с. 37-38.

43 Guduraš, D. Economic Crisis and Tourism: Case of the Greek Tourism Sector // – Dubrovnik: Economic Thought and Practice. Periodical of the University of Dubrovnik – 2014, no. 2, – p. 614.

44 Nye, J.S. Soft Power: The Means to Success in World Politics / New York: Public Affairs, – 2004, – p. 191.

illər üçün elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram qəbul edilmişdir.

Azərbaycanda yunan dilinin tədris olunması Yunanıstanın milli strateji prioriteti olmaqla yanaşı, həm də "yumşaq güc"ün nümayiş olunmasıdır. Çünki dil vasitəsilə tələbələr Yunanıstanın tarixini, mifologiyasını, fəlsəfəsini və daxili siyasi stukturunu öyrənirlər[45].

Azərbaycan ilə Yunanıstan arasında həyata keçirilən siyasətin kulturoloji aspektlərinin və mədəniyyət sahəsində diplomatiyanın tədqiq olunması mühüm əhəmiyyət kəsb edir.

Fəslin **"Azərbaycan-Yunanıstan münasibətlərində diaspora amili"** adlanan **2-ci yarımfəslində** Azərbaycanda yunan icmasının təşəkkül tapması, Bakıda Yunan Filantropik Cəmiyyətinin təsis edilməsi, cəmiyyətin nəzdində fəaliyyət göstərən kilsə, klub, məktəb, "Evripidis" teatr kollektivi və "Embros" ("İrəli") futbol komandasından bəhs olunur. SSRİ Xalq Daxili İşlər komissarı N.Yejovun 1937-ci ilin dekabrın 11-də imzaladığı 50215 saylı direktivlə Bakıda yaşayan yunanların repressiyasının başlanğıcı qoyulur, Yunan Filantropik Cəmiyyəti bağlanır, yunanları birləşdirən və bir-birinə bağlayan bütün dəyərlər məhv olur[46]. "Yunan əməliyyatı" 1938-ci ilin aprelin 15-nə qədər davam etmiş və xüsusi amansızlığı ilə seçilmişdir[47]. 1942-ci ildə yunanların, o cümlədən Azərbaycan yunanlarının Şimali Qazaxıstana və Sibirə xüsusi yaşayış məntəqəsinə ilk sürgünü həyata keçirilmişdir. "Qara dəniz sahillərini və Qafqazı siyasi etibarsız ünsürlərdən təmizləmək məqsədləri" ilə bağlı olaraq 1949-cu ilin mayın 17-də Sovet İttifaqı KP MK Siyasi Bürosunun qəbul etdiyi qərarla on minlərlə yunan Qazaxıstanın cənubuna sürgün edilmişdir[48].

1994-cü ildə Yunanıstanın Azərbaycanda səfiri P.Karakasisin təşəbbüsü ilə səfirliyin nəzdində Yunan Mədəniyyət Mərkəzinin

---

[45] Huseynov, I. Cultural and political aspect as a foundation key link in the expanding relation between Azerbaijan and Greece // – Lviv: Visnyk of the Lviv University, Philosophical and Political studies – 2020, Issue 31– p. 105-111.

[46] Российский государственный архив новейшей истории (РГАНИ), фонд (Комиссия Шверника), дело 4, листы 4-6.

[47] Huseynov, I. Greeks in Azerbaijan: epochal look at history and modernity // – Dnipro: Grani Scientific and Theoretical almanac. – 2020, № 5 – p. 60.

[48] Российский государственный архив социально-политической истории. Ф. 17. Оп. 162, Д. 40. л 185. Копия.

fəaliyyətə başlaması, 1997-ci ildə “Arqo” yunan cəmiyyətinin təsis olunması ilə onilliklər sonra Azərbaycanın yunanlarını birləşdirmək mümkün olmuşdur.

2017-ci ildə Yunanıstanın Saloniki şəhərində yaşayan Azərbaycan icmasının üzvlərinin və yunanların birgə müraciətinə əsasən şəhər məhkəməsinin müvafiq qərarı ilə “Qala” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti təsis edilmişdir. Yarandığı gündən etibarən “Qala” cəmiyyəti Diasporla İş üzrə Dövlət Komitəsi ilə sıx təmasda olmuşdur.

**Nəticədə** tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki xarakterli zəruri təklif və tövsiyələr irəli sürülmüşdür. Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli səviyyədə, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq müəyyən inkişaf dövrü keçmişdir. Hazırda bu əməkdaşlığın daha da genişləndirilməsi üçün ardıcıl addımlar atılır, Aİ kontekstində isə yaxın əlaqələrin qurulmasına xüsusi əhəmiyyət verilir. İkitərəfli münasibətlərdə enerji amili böyük rol oynayır və bu istiqamətdə əlaqələr strateji xarakter daşıyır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi əsərlərində öz əksini tapmışdır:**


1. Heydər Əliyevin təhsil siyasəti və Bakı Slavyan Universitetində Yunan dili və mədəniyyəti Mərkəzinin fəaliyyəti // “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda magistrant, doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransı, – Bakı: – “Mütərcim”, – 28 aprel 2017, – 2017, – s. 61-62.

2. Ümummilli lider Heydər Əliyevin yunan diplomatları ilə görüşləri // “Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, – Bakı: – “Biznes Universiteti” nəşriyyatı, – 04-05 may 2017, – 2017, – s. 728-732.

3. Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın Azərbaycana dövlət səfərinin nəticələri // “Heydər Əliyev irsi: Müasir dövrdə İslam Həmrəyliyi” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, – Bakı: “Müəllim” nəşriyyatı, – 10 may 2017, – 2017, – s. 154-155.

4. Azərbaycan-Yunanıstan iqtisadi münasibətlərinin prioritet istiqamətləri // "İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları" mövzusunda Respublika elmi konfransı, – Sumqayıt: Sumqayıt Dövlət Universiteti. Redaksiya və nəşr işləri şöbəsi, – 17-18 oktyabr 2017, – 2017, – s. 228-230.

5. Azərbaycan və Yunanıstan arasında siyasi münasibətlərin yaradılmasında Heydər Əliyevin rolu // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransı, – Bakı: "Bakı Universiteti Nəşriyyatı", – 24-25 oktyabr 2017, – 2017, 2-ci cild, – s. 64-66.

6. The rights and freedoms of the human and citizens in Azerbaijan and Greece (comparative analysis) // International scientific-practical conference of students, graduate students and young scientists "Youth science - 2018: socio-economic and humanitarian aspects of society development", – Chernihiv: "Chernihiv National Technological University Press", – April 11-12 2018, – 2018, 2nd volume, – p. 104-108. **(Ukrayna)**

7. Activities of the Heydar Aliyev Foundation in Greece // Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransı, – Bakı: "Azərbaycan Universiteti" Nəşriyyatı, – 20 aprel 2018, – 2018, – s. 35-36.

8. Azərbaycanda yaşayan yunanlar multikulturalizm şəraitində // "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfrans, – Bakı: "MTM-İnnovation" MMC, – 09 aprel – 05 may 2018, – 2018, – s. 199-200.

9. Qafqazda geosiyasi proseslər və Yunanıstanın maraqları // "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans, – Bakı: MTM İnnovation, – 23-24 may 2018, – 2019, – 2-ci cild, – s. 235-242.

10. TAP layihəsi və Yunanıstan. Doktoranların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, – Bakı: ADPU Nəşriyyatı, 22-23 noyabr 2018, – 2019, – 2-ci cild, s. 41-42.

11. Yunanların Azərbaycandan köçürülməsi // "Qafqazda deportasiyalar" mövzusunda Respublika elmi konfransı, – Bakı: "Mütərcim", – 29 noyabr 2018, – 2018, – s. 67-68.

12. Азербайджано-греческие отношения в контексте энергетической стратегии Гейдара Алиева. Azerbaijan-Greece

relations in the context of Heydar Aliyev energy strategy // – Bakı: İqtisadi və siyasi elmlər jurnalı, – 2018. №4 (13), – s. 84-93.; p. 184-191.

13. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Yunanıstan Respublikasının mövqeyi // – Bakı: Geostrategiya, – 2018. №6 (48), – s. 57-60.

14. Azərbaycan və Yunanıstan arasında turizm sahəsində əməkdaşlıq // Gənc tədqiqatçıların II Respublika elmi-praktik konfransı, – Bakı: "Azərbaycan Universiteti" Nəşriyyatı, – 15 mart 2019, – 2019, s. – 167-169.

15. Greek diaspora in Azerbaijan and activity of Greek society "ARGO" // International scientific-practical conference of students, graduate students and young scientists "Youth science - 2019: socio-economic and humanitarian aspects of society development", – Chernihiv: "Chernihiv National Technological University Press", – April 17-18, 2019, – 2019, – 2nd volume, – p. 211-213. **(Ukrayna)**

16. Cooperation between Azerbaijan and Greece in the field of science // Gənc tədqiqatçıların elmi-praktik konfransı, – Bakı: Qərbi Kaspi Universiteti. Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 19 aprel 2019, – 2019, – s. 118-120.

17. Azərbaycan və Yunanıstan arasında mədəni münasibətlərin tarixi kökləri və mövcud vəziyyəti // III İnternational Scientific Conference of Young Researchers, – Bakı: "Bakı Mühəndislik Universitetinin Nəşriyyatı", – 29-30 Aprel 2019, – 2019 – 1st book. s. 841-846.

18. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstana ilk dövlət səfəri və bu səfərin ikitərəfli siyasi münasibətlərə təsiri // "Azərbaycan və dünya 1991-2018-ci illərdə: müqayisəli inkişaf dinamikası" mövzusunda Respublika elmi-praktik konfransı, – Bakı: Qərbi Kaspi Universiteti. Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2 may 2019, – 2019, – s. 62-68.

19. Müasir dövrdə Azərbaycan-Yunanıstan siyasi münasibətləri // "Heydər Əliyev ideyaları və müasir Azərbaycan" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı, – Bakı: Aspoliqraf, – 03 may 2019, – 2019, – s. 207-215.

20. The role of the azerbaijanis in the ethnic diversity of Greece and activity of Greece-Azerbaijan friendship society "Gala" // "Heydər

Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda II beynəlxalq elmi konfransı, – Bakı: “Mütərcim”, – 06-08 may 2019, – 2019, – s. 160-161.

21. Azərbaycan və Yunanıstan arasında təhsil sahəsində əməkdaşlıq // “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda X beynəlxalq elmi konfrans, – Bakı: “Mütərcim”, – 07 may 2019 – 2019, – s. 206-209.

22. Azerbaijan-Greece relations: historical proximity or cultural diversity? (conseptual view for the period from creation the first Greek settlements in Azerbaijan to the horrible policy of relocaion Stalinism) // Qafqazşünasların II Beynəlxalq Forumu, – Bakı: RS Poliqraf MMC, – 23-24 may 2019, – 2020, 2-ci cild, – s. 393-402.

23. Azərbaycan-Yunanıstan parlamentlərarası əməkdaşlığı // – Bakı:Elmi əsərlər AMEA Tarix İnstitutu, – 2019. №78, – s. 208-220.

24. Azərbaycan və Yunanıstan arasında turizm sahəsində əməkdaşlığın bəzi aspektləri // – Bakı: Geostrategiya, – 2019. №04 (52), – s. 63-67.

25. Azərbaycan və Yunanıstan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri // – Bakı: Sivilizasiya, – 2019. Cild8, №3 (43), – s.72-77.

26. Müasir dövrdə Azərbaycan-Yunanıstan siyasi münasibətlərinin əsas xarakterik cəhətləri // “Beynəlxalq münasibətlərin aktual problemləri” mövzusunda Respublika elmi konfransı, – Bakı: “Elm və təhsil”, – 25 oktyabr 2019, – 2019, – s. 262-265.

27. Azərbaycan və Yunanıstan arasında mədəniyyət sahəsində əməkdaşlıq // “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində” mövzusunda doktorant, magistrant və tələbələrin Beynəlxalq elmi-praktik konfransı, – Bakı: “Mütərcim”, – 22 noyabr 2019, – 2019, – s. 166-168.

28. Erməni terror təşkilatlarının Yunanıstanda fəaliyyəti // “Qafqazda terror” mövzusunda Respublika elmi konfransı, – Bakı: MTM İnnovation, – 28 noyabr 2019, – 2019, – s. 78-80.

29. Azərbaycan-Yunanıstan parlamentlərarası münasibətlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi // – Bakı: Elmi xəbərlər. İctimai və texniki elmlər seriyası, Qərbi Kaspi Universiteti, – 2019. №3, – s. 90-101.

30. Azərbaycan-Yunanıstan münasibətlərində enerji amili // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransı, – Bakı: AzMİU "Nəşriyyat və Poliqrafiya Mərkəzi", – 03-04 dekabr 2019, – 2019, – 2-ci cild. – s. 28-29.

31. TAP layihəsi: Azərbaycan-Yunanıstan enerji münasibətlərində yeni mərhələ // "Təhsil millətin gələcəyidir" mövzusunda Respublika elmi konfransı, – Bakı: Qərbi Kaspi Universiteti. Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 10 may 2020, – 2021, – s. 69-72.

32. Greeks in Azerbaijan: epochal look at history and modernity. // – Dnipro: Scientific, theoretical and social-political almanac "Grani", – 2020. Tom 23 (№5), – p. 53-63. **(Ukrayna)**

33. Этапы развития и основные особенности дипломатических и политических отношений между Азербайджаном и Грецией // – Москва: Этносоциум и межнациональная культура, – 2020. №5 (143),– с. 66-79. **(Rusiya)**

34. Influence of the modern Greek language and cultural center at the Baku Slavic University of the relations between Azerbaijan and Greece // 1st International Turkish Literature, Culture, Education Symposium in the memory of Bilge Tonyukuk, – Bursa: TEKE Academy, – August 28-29, 2020, – 2020, – p. 201-204. **(Türkiyə)**

35. Azərbaycan və Yunanıstan arasında siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsində Prezident İlham Əliyevin rolu // Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, – 2020, №2 (70), – s. 117-124. (Hikmət Məmmədovla həmmüəllif)

36. Cultural and political aspect as a foundation and a key link in the expanding relations between Azerbaijan and Greece // – Lviv: Visnyk of the Lviv University. Philosophical and Political studies – 2020, Issue 31, – p. 105-111. **(Ukrayna)**

37. Azərbaycan-Yunanıstan münasibətləri: tarixi, etnosiyasi və politoloji aspektlərin təhlili // – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, İctimai və pedaqoji-psixoloji elmlər seriyası – 2021. Cild 69, №1. – s. 102-114.

38. Müasir dövrdə Avropa İttifaqının enerji təhlükəsizliyi kontekstində Azərbaycan-Yunanıstan münasibətləri // – Bakı: Sosial elmlər, AMEA, – 2021, №1. – s. 245-250.

39. Azərbaycan və Yunanıstan arasında enerji sahəsində əməkdaşlığa mənfi təsir edən əsas amillər: SOCAR-DESFA

sövdələşməsinin pozulmasını doğuran səbəblərin təhlili // – Bakı: Tarix və onun problemləri, – 2021. №3, (94), – s. 139-144.



Dissertasiyanın müdafiəsi "_5_" _iyun_ 2025-cı il tarixində saat _13:30_-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "_5_" _may_ 2025-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.05.2025
Kağızın formatı: A5
Həcm: 45347
Tiraj: 100